# *“NAMAZIN ŞƏRTLƏRİ, RÜKUNLARI VƏ VACİBLƏRİ.”*

ŞEYXUL-İSLAM MUHƏMMƏD İBN ABDULVAHHAB – ALLAH ONA RƏHMƏT ETSİN –

*Arif Allahyarov*

Məhərrəm ayının 4-ü 1446-cı il.

BİSMİLLƏHİR-RAHMƏNİR-RAHİM

MƏRHƏMƏTLİ VƏ RƏHİMLİ ALLAHIN ADI İLƏ

*NAMAZIN ŞƏRTLƏRİ DOQQUZDUR:*

1. MÜSƏLMAN OLMAQ.

2. AĞIL SAHİBİ OLMAQ.

3. AYIRDETMƏ YAŞINA ÇATMAQ.

4. DƏSTƏMAZLI OLMAQ.

5. PALTARLARIN, BƏDƏNİN VƏ NAMAZ QILINACAQ YERİN TƏMİZ OLMASI.

6. ÖVRƏT YERİNİ ÖRTMƏK.

7. NAMAZ VAXTININ DAXİL OLMASI.

8. QİBLƏYƏ TƏRƏF YÖNƏLMƏK.

9. NİYYƏT ETMƏK.

BİRİNCİ ŞƏRT: MÜSƏLMAN OLMAQ.

İSLAMIN ƏKSİ KÜFRDÜR. KAFİRİN ƏMƏLİ QƏBUL DEYİLDİR - GERİ ÇEVRİLİR. NAMAZ ANCAQ MÜSƏLMAN OLAN ŞƏXSDƏN QƏBUL OLUNUR. UCA ALLAH DEYİR: ***"KİM İSLAMDAN BAŞQA BİR DİN AXTARARSA, BİLSİN Kİ, O DİN ONDAN ƏSLA QƏBUL OLUNMAZ VƏ O, AXİRƏTDƏ ZİYANA UĞRAYANLARDAN OLAR."***[1] KAFİR HANSI ƏMƏLİ EDİR ETSİN, ƏMƏLİ QƏBUL DEYİLDİR - GERİ ÇEVRİLİR. UCA ALLAH DEYİR: ***"MÜŞRİKLƏR KÜFR ETDİKLƏRİNİ BİLDİKLƏRİ HALDA, ONLARA ALLAHIN MƏSCİDLƏRİNİ ABADLAŞDIRMAQ YARAMAZ. ONLARIN ƏMƏLLƏRİ PUÇA ÇIXMIŞDIR. ONLAR ODDA ƏBƏDİ QALACAQLAR."***[2] UCA ALLAH DEYİR: ***"BİZ ONLARIN ETDİKLƏRİ ƏMƏLLƏRƏ BAXDIQDAN SONRA ONLARI SOVRULMUŞ TOZ DƏNƏCİKLƏRİNƏ ÇEVİRƏRİK."***[3]

İKİNCİ ŞƏRT: AĞIL SAHİBİ OLMAQ.

AĞILLI OLMAĞIN ƏKSİ DƏLİLİKDİR. DƏLİDƏN AĞLI BAŞINA GƏLƏNƏ QƏDƏR QƏLƏM QALDIRILMIŞDIR. ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR***: "ÜÇ NƏFƏRDƏN QƏLƏM QALDIRILMIŞDIR: AYILANA QƏDƏR***

[1] Ali-İmran surəsi, 85-ci ayə.
[2] Tövbə surəsi, 17-ci ayə.
[3] Furqan surəsi, 23-cü ayə.

***YATMIŞDAN, AĞLI BAŞINA GƏLƏNƏ QƏDƏR DƏLİDƏN VƏ HƏDDİ-BÜLUĞ YAŞINA ÇATANA QƏDƏR UŞAQDAN.”***[4]

ÜÇÜNCÜ ŞƏRT: AYIRDETMƏ YAŞINA ÇATMAQ.

AYIRDETMƏ YAŞINA ÇATMAĞIN ƏKSİ BALACALIQDIR. BALACALIĞIN HƏDDİ YEDDİ YAŞDIR. UŞAQ YEDDİ YAŞINA ÇATANDAN SONRA NAMAZ QILMAQLA ƏMR OLUNUR. ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR:*“**ÖVLADLARINIZ YEDDİ YAŞINA ÇATDIQDA ONLARI NAMAZ QILMAĞA ÇAĞIRIN, ON YAŞINA ÇATDIQDA (NAMAZ QILMASALAR) VURUN VƏ ONLARIN YATAQLARINI AYIRIN.”***[5]

DÖRDÜNCÜ ŞƏRT: DƏSTƏMAZ ALMAQ.

TƏBİİ EHTİYAC (NATƏMİZ) HALINI ARADAN QALDIRMAQ. BU HALIN ARADAN QALXMASI, MƏLUM OLDUĞU KİMİ, DƏSTƏMAZ ALMAQLA OLUR. DƏSTƏMAZ ALMAĞI TƏBİİ EHTİYACIN BAŞ VERMƏSİ VACİB EDİR.

DƏSTƏMAZIN ŞƏRTLƏRİ ONDUR:

1. MÜSƏLMAN OLMAQ.

2. AĞIL SAHİBİ OLMAQ.

3. AYIRDETMƏ YAŞINA ÇATMAQ.

4. NİYYƏT ETMƏK.

5. TƏBİİ EHTİYACIN TAM ŞƏKİLDƏ BİTİB DAYANMASI.

6. TƏBİİ EHTİYACI QARŞILADIQDAN SONRA İSTİNCA (su ilə təmizlənmə) VƏ YA İSTİCMAR (daş, kağız və ya yarpaqla təmizlənmə) ETMƏK.

7. SUYUN TƏMİZ OLMASI.

8. SUYUN MÜBAH (HALAL) OLMASI.

9. SUYUN DƏRİYƏ ÇATMASINA MANE OLAN ŞEYLƏRİN DƏRİDƏN UZAQLAŞDIRILMASI.

10. XRONİKİ XƏSTƏLİKLƏRİ OLAN (SİDİYİNİ VƏ S. SAXLAYA BİLMƏYƏNLƏR KİMİ) ŞƏXSLƏR ÜÇÜN NAMAZIN VAXTININ DAXİL OLMASI.

DƏSTƏMAZIN FƏRZLƏRİ ALTIDIR:

1. ÜZÜ YUMAQ. AĞIZA VƏ BURUNA SU VERMƏK DƏ ÜZÜ YUMAĞA DAXİLDİR. ÜZÜN UZUNLUQ HƏDDİ ALININ YUXARISINDA SAÇLARIN BİTDİYİ YERDƏN ÇƏNƏYƏ QƏDƏRDİR. ÜZÜN ENLİLİK HƏDDİ İSƏ BİR QULAĞIN YUMŞAQ YERİNDƏN DİGƏR QULAĞIN YUMŞAQ YERİNƏ QƏDƏRDİR.
2. QOLLARI DİRSƏKLƏRLƏ BİRLİKDƏ YUMAQ.

---

[4] Sunən ət-Tirmizi, 1423.

[5] Sünən əbu-Davud, 495.

3. BÜTÖV BAŞA MƏSH ÇƏKMƏK. QULAQLAR DA BAŞA DAXİLDİR.
4. AYAQLARI TOPUQLARLA BİRLİKDƏ YUMAQ.
5. TƏRTİBƏ RİAYƏT ETMƏK. ÜZVLƏRİ SIRA İLƏ YUMAQ.
6. ÜZVLƏRİ YUYAN ZAMAN DAVAMLI OLMAQ, FASİLƏ VERMƏMƏK.

DƏSTƏMAZIN FƏRZLƏRİNİN DƏLİLİ. UCA ALLAH DEYİR: ***"EY İMAN GƏTİRƏNLƏR! NAMAZA QALXDIĞINIZ ZAMAN ÜZÜNÜZÜ VƏ DİRSƏKLƏRƏ QƏDƏR ƏLLƏRİNİZİ YUYUN, BAŞINIZA MƏSH ÇƏKİN VƏ TOPUQLARA QƏDƏR AYAQLARINIZI YUYUN."***[6]

TƏRTİBƏ RİAYƏT ETMƏYİN – ÜZVLƏRİ SIRA İLƏ YUMAĞIN DƏLİLİ İSƏ: ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR: ***"ALLAH NƏ İLƏ BAŞLAMIŞSA, SİZ DƏ ONUNLA BAŞLAYIN."***

ÜZVLƏRİ YUYAN ZAMAN DAVAMLI OLUB FASİLƏ VERMƏMƏYİN DƏLİLİ İSƏ "PARILTI SAHİBİ"NİN HƏDİSİDİR. ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - BİR KİŞİNİN DƏSTƏMAZ ALAN ZAMAN AYAĞINDA DİRHƏM BOYDA YERİN QURU QALIB SU DƏYMƏDİYİNİ GÖRÜR. BU VAXT ONA YENİDƏN DƏSTƏMAZ ALMAĞI ƏMR EDİR.

DƏSTƏMAZIN VACİBİ İSƏ XATIRLADIQDA DƏSTƏMAZA BAŞLAYAN ZAMAN "BİSMİLLƏH" DEMƏKDİR. ƏGƏR "BİSMİLLƏH" DEMƏYİ UNUDARSA, DƏSTƏMAZ DOĞRUDUR.

DƏSTƏMAZI POZAN HALLAR SƏKKİZDİR.

1. ÖN VƏ ARXA KANALLARDAN (İFRAZAT ORQANLARINDAN) ÇIXAN HƏR BİR ŞEY.

2. BƏDƏNDƏN ÇIXAN ÇİRKİN VƏ NƏCİS (MURDAR) ŞEYLƏR.

3. AĞLIN GETMƏSİ. (YATMAQ, YUXULAMAQ)

4. QADINA ŞƏHVƏTLƏ TOXUNMAQ.

5. ƏLİN İÇİ VƏ YA ÇÖLÜ İLƏ ÖVRƏT YERİNƏ TOXUNMAQ.

6. DƏVƏ ƏTİ YEMƏK.

7. ÖLÜNÜ YUMAQ.

8. İSLAM DİNİNDƏN ÇIXMAQ - ALLAH BİZİ BUNDAN QORUSUN –

BEŞİNCİ ŞƏRT: PALTARIN, BƏDƏNİN VƏ NAMAZ QILINACAQ YERİN TƏMİZ OLMASI. UCA ALLAH DEYİR: ***"GEYİMİNİ TƏMİZ SAXLA"***[7]

---

[6] Maidə durəsi, 6-cı ayə.
[7] Muddəssir surəsi, 4-cü ayə.

ALTINCI ŞƏRT: ÖVRƏT YERİNİ ÖRTMƏK.

ALİMLƏR GEYİNMƏYƏ İMKANI OLDUĞU HALDA ÇILPAQ NAMAZ QILANIN NAMAZININ BATİL OLMASINDA İCMA ETMİŞLƏR. KİŞİNİN ÖVRƏT YERİ GÖBƏKDƏN DİZƏ QƏDƏRDİR, KÖLƏ QADINDA DA HƏMÇİNİN. AMMA AZAD OLAN QADINDA İSƏ ÜZÜNDƏN BAŞQA HƏR BİR YERİ ÖVRƏTDİR VƏ NAMAZDA BAĞLI OLMALIDIR. UCA ALLAH DEYİR: ***"EY ADƏM OĞULLARI! MƏSCİDLƏRƏ GEDƏRKƏN GÖZƏL GEYİMLƏRİNİZİ GEYİNİN"***[8] - YƏNİ HƏR NAMAZA QALXDIQDA.

YEDDİNCİ ŞƏRT: NAMAZ VAXTININ DAXİL OLMASI.

BUNA SÜNNƏDƏN DƏLİL CƏBRAYIL HƏDİSİ. O, PEYĞƏMBƏRƏ - ona Allahın salavatı və salamı olsun - İLK VƏ SON VAXTLARDA İMAMLIQ ETDİ VƏ SONRA DEDİ: ***"EY MUHƏMMƏD! NAMAZ BU İKİ VAXTIN ARASINDADIR."*** UCA ALLAH DEYİR: ***"NAMAZ MÖMİNLƏRƏ MÜƏYYƏN OLUNMUŞ VAXTLARDA VACİB EDİLMİŞDİR."***[9] *YƏNİ: HƏR NAMAZ ÖZ VAXTINDA FƏRZ EDİLMİŞDİR.* NAMAZIN VAXTLARININ DƏLİLİ - UCA ALLAH DEYİR: ***"GÜN BATMAĞA MEYL EDƏNDƏN GECƏNİN QARANLIĞINADƏK BƏLLİ VAXTLARDA NAMAZ QIL VƏ SÜBH ÇAĞI QURAN OXU (FƏCR NAMAZINI DA QIL)! ÇÜNKİ SÜBH ÇAĞI OXUNAN QURANIN ŞAHİDLƏRİ OLUR."***[10]

SƏKKİZİNCİ ŞƏRT: QİBLƏYƏ TƏRƏF YÖNƏLMƏK.

UCA ALLAH DEYİR: ***"BİZ SƏNİN ÜZÜNÜN GÖYƏ TƏRƏF ÇEVRİLDİYİNİ GÖRÜRÜK. ODUR Kİ, SƏNİ RAZI QALACAĞIN QİBLƏYƏ TƏRƏF YÖNƏLDƏCƏYİK. ARTIQ ÜZÜNÜ MƏSCİDULHARAMA TƏRƏF ÇEVİR! HARADA OLURSUNUZSA, OLUN, ÜZÜNÜZÜ ONA TƏRƏF ÇEVİRİN!"***[11]

DOQQUZUNCU ŞƏRT: NİYYƏT ETMƏK.

NİYYƏTİN YERİ QƏLBDİR. ONU DİL İLƏ SÖYLƏMƏK BİDƏTDİR. BUNA DƏLİL ALLAH RƏSULUNUN - ona Allahın salavatı və salamı olsun - HƏDİSİDİR:

[8] Əraf surəsi, 31-ci ayə.
[9] Nisa surəsi, 103-cü ayə.
[10] İsra surəsi, 78-ci ayə.
[11] əl-Bəqara surəsi, 144-cü ayə.

***"HƏQİQƏTƏN DƏ, ƏMƏLLƏR ANCAQ NİYYƏTLƏRƏ GÖRƏDİR. ŞÜBHƏSİZ Kİ, HƏR BİR ŞƏXSƏ ANCAQ NİYYƏTİNİN QARŞILIĞI VERİLƏR."***

*NAMAZIN RÜKUNLARI ON DÖRDDÜR:*

1. BACARDIĞI HALDA QİYAMDA OLMAQ.

2. BAŞLANĞIC TƏKBİRİ. (TƏKBİRATUL-EHRAM)

3. HƏR RÜKƏTDƏ "FATİHƏ" SURƏSİNİ OXUMAQ.

4. RUKUYA GETMƏK.

5. RUKUDAN QALXMAQ.

6. YEDDİ ÜZV İLƏ SƏCDƏ ETMƏK.

7. SƏCDƏDƏN QALXMAQ.

8. İKİ SƏCDƏ ARASINDA OTURMAQ.

9. BÜTÜN HƏRƏKƏTLƏRİ YERİNƏ YETİRƏRKƏN ƏZALARIN YERİNƏ OTURMASI (TƏLƏSMƏMƏK).

10. RÜKUNLARIN ARASINDA TƏRTİBƏ (ARDICILLIĞA) RİAYƏT ETMƏK.

11. SONUNCU TƏŞƏHHÜD.

12. SONUNCU TƏŞƏHHÜDƏ OTURMAQ.

13. PEYĞƏMBƏRƏ - ona Allahın salavatı və salamı olsun - SALAVAT DEMƏK.

14. HƏR İKİ TƏRƏFƏ (SAĞA VƏ SOLA) SALAM VERMƏK.

BİRİNCİ RÜKUN: BACARDIĞI HALDA QİYAMDA OLMAQ. UCA ALLAH DEYİR: ***"ALLAH QARŞISINDA MÜTİLİKLƏ DURUN."***[12]

İKİNCİ RÜKUN: BAŞLANĞIC TƏKBİRİ. (TƏKBİRATUL-EHRAM) BUNA DƏLİL OLARAQ ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR: ***"NAMAZIN BAŞLANĞICI TƏKBİR, SONU İSƏ SALAMDIR."***[13]

BAŞLANĞIC TƏKBİRİNDƏN ("ALLAHU ƏKBƏR" - DEDİKDƏN) SONRA AÇILIŞ DUASI OXUNUR. AÇILIŞ DUASINI OXUMAQ SÜNNƏDİR. AÇILIŞ DUASINI

---

[12] əl-Bəqara surəsi, 238-ci ayə.
[13] Sunən əbu-Davud, 61.

OXUYARKƏN DEYİRİK: *[SUBHƏNƏKALLAHUMMƏ VƏ BİHƏMDİK VƏ TƏBƏƏRAKƏSMUK VƏ TƏAALƏƏ CƏDDUK VƏ LƏƏ İLƏƏHƏ ĞAYRUK]* MƏNASI: *ALLAHIM! SƏN PAK VƏ MÜQƏDDƏSSƏN. SƏNƏ HƏMD OLSUN. SƏNİN ADIN MÜBARƏK, ƏZƏMƏTİN UCADIR. SƏNDƏN BAŞQA İBADƏTƏ HAQQI ÇATAN MƏBUD YOXDUR.*

*"SUNHƏƏNƏKƏLLAHUMMƏ"* MƏNASI, ALLAHIM! SƏN PAK VƏ MÜQƏDDƏSSƏN. YƏNİ ALLAHIM, MƏN SƏNİ SƏNİN UCALIĞINA LAYİQ OLAN TƏRZDƏ NÖQSANLARDAN UZAQ TUTURAM. *"VƏ BİHƏMDİK"* YƏNİ, SƏNƏ HƏMD OLSUN. YƏNİ ALLAHIM, MƏN SƏNƏ SƏNA EDİRƏM VƏ SƏNİ TƏRİF EDİRƏM. *"VƏ TƏBƏRAKƏSMUK"* YƏNİ, SƏNİN ADIN MÜBARƏKDİR. YƏNİ BƏRƏKƏTƏ SƏNİN ADINI ZİKR ETMƏKLƏ NAİL OLMAQ OLUR. *"VƏ TƏALƏƏ CƏDDUK"* YƏNİ, SƏNİN ƏZƏMƏTİN UCADIR. YƏNİ SƏNİN QÜDRƏTİN UCADIR MƏQAMIN VƏ ŞƏNİN İSƏ ƏZƏMƏTLİDİR. "VƏ LƏƏ İLƏHƏ ĞAYRUKƏ" YƏNİ, SƏNDƏN BAŞQA İBADƏTƏ HAQQI ÇATAN MƏBUD YOXDUR. YƏNİ SƏNDƏN SAVAYI NƏ GÖYDƏ, NƏ DƏ YERDƏ HAQQ MƏBUD VAR.

İSTİAZƏNİN MƏNASI. İSTİAZƏ, YƏNİ "ƏUZU BİLLƏHİ MİNƏŞ-ŞEYTANİR-RACİM." MƏNASI – ALLAHIN RƏHMƏTİNDƏN QOVULMUŞ ŞEYTANDAN ALLAHA SIĞINIRAM. *"ƏUZU BİLLƏHİ"* YƏNİ, MƏN ALLAHA SIĞINIRAM, ALLAHDAN HİMAYƏ İSTƏYİRƏM VƏ EY ALLAHIM, MƏN SƏNƏ BAĞLANIRAM. *"MİNƏŞ-ŞEYTANİR-RACİM"* YƏNİ, ALLAHIN RƏHMƏTİNDƏN QOVULMUŞ VƏ UZAQLAŞDIRILMIŞ ŞEYTANDAN. (ALLAHIN İZNİ İLƏ) O MƏNƏ NƏ DİNİMDƏ, NƏ DƏ DÜNYAMDA ZƏRƏR VƏ ZİYAN VURA BİLƏR.

ÜÇÜNCÜ RÜKUN: FATİHƏ SURƏSİNİ OXUMAQ. NAMAZIN HƏR BİR RÜKƏTİNDƏ FATİHƏ SURƏSİNİ OXUMAQ NAMAZIN RÜKUNLARINDANDIR. BUNA DƏLİL OLARAQ ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR: ***“FATİHƏ SURƏSİNİ OXUMAYANIN NAMAZI SAYILMIR.”***[14] FATİHƏ SURƏSİ QURANİ-KƏRİMİN ANASIDIR.

"BİSMİLLƏHİR-RAHMƏNİR-RAHİM." MƏRHƏMƏTLİ VƏ RƏHİMLİ ALLAHIN ADI İLƏ. YƏNİ, ALLAHDAN BƏRƏKƏT DİLƏYƏRƏK VƏ ONDAN KÖMƏKLİK İSTƏYƏRƏK. "ƏLHƏMDU LİLLƏHİ RABBİL-ALƏMİN." YƏNİ, HƏMD ALƏMLƏRİN

---

[14] Səhih əl-Buxari, 756.

RƏBBİ ALLAHA MƏXSUSDUR. "ƏL-HƏMDU" YƏNİ, SƏNA ETMƏK, TƏRİF ETMƏK DEMƏKDİR. HƏMD SÖZÜNƏ DAXİL OLAN "ƏLİF" VƏ "LƏM" İSTİĞRAQ MƏNASINDADIR VƏ HƏMDİN HƏR NÖVÜNÜ ÖZÜNDƏ ƏHATƏ EDİR. "RABBİL-ALƏMİN" YƏNİ, ALƏMLƏRİN RƏBBİ. "RƏBB" YƏNİ, İBADƏT OLUNAN, YARADAN, RUZİ VERƏN, MÜLKÜN SAHİBİ OLAN, TƏSƏRRÜF EDƏN VƏ BÜTÜN ALƏMLƏRİ ÖZ NEMƏTLƏRİ İLƏ İDARƏ EDƏN DEMƏKDİR. "ALƏMLƏR" ALLAHDAN SAVAYI HƏR BİR ŞEY ALƏMDİR. O HƏR BİR ŞEYİN RƏBBİDİR. "ƏR-RAHMƏNİR-RAHİM" YƏNİ, MƏRHƏMƏTLİ VƏ RƏHMLİ. "ƏR-RAHMƏN" YƏNİ, RƏHMƏTİ BÜTÜN YARATDIQLARINI ƏHATƏ EDƏN DEMƏKDİR. "ƏR-RAHMƏN" YƏNİ, GENİŞ RƏHMƏT SAHİBİ DEMƏKDİR. ƏR-RAHİM MÖMİNLƏRƏ XAS OLAN RƏHMƏTİ DEMƏKDİR. ƏBƏDİ VƏ DAİMİ RƏHMƏT SAHİBİ DEMƏKDİR. UCA ALLAH DEYİR: ***“ALLAH MÖMİNLƏRƏ QARŞI RƏHMLİDİR.”***[15] "MƏLİKİ YƏVMİD-DİN" YƏNİ, DİN GÜNÜNÜN HÖKÜMDARI. DİN GÜNÜ YƏNİ, MÜKAFAT VƏ HAQQ-HESAB GÜNÜDÜR. O GÜN HAMI HAQQ-HESAB OLUNACAQ. HƏR KƏS ETMİŞ OLDUĞU ƏMƏLİNƏ GÖRƏ MÜKAFATINI, YAXUD DA CƏZASINI ALACAQ. ƏGƏR XEYİR İŞLƏR GÖRÜBSƏ, QARŞISINA XEYİR ÇIXACAQ, YOX, ƏGƏR ŞƏR İŞLƏR GÖRÜBSƏ, QARŞISINA ŞƏR ÇIXACAQ. UCA ALLAH DEYİR: ***“SƏN HARADAN BİLƏYDİN Kİ, DİN GÜNÜ NƏDİR? DOĞRUDAN DA, SƏN HARADAN BİLƏYDİN Kİ, DİN GÜNÜ NƏDİR? O GÜN HEÇ KƏS HEÇ KƏSƏ FAYDA VERƏ BİLMƏZ. O GÜN HÖKM YALNIZ ALLAHA MƏXSUS OLACAQ!”***[16] HƏDİSDƏ İSƏ ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR: ***“AĞILLI ADAM ÖZ NƏFSİNİ HAQQ-HESABA ÇƏKƏN VƏ ÖLÜMDƏN SONRAKI HƏYAT ÜÇÜN ÇALIŞAN ADAMDIR. ACİZ ADAM İSƏ NƏFSİNİN İSTƏK VƏ ARZULARINA UYAN VƏ SONRA ALLAHDAN ƏMİN-AMANLIQ UMAN KƏSDİR.”***[17] "İYYƏKƏ NƏBUDU" YƏNİ, BİZ YALNIZ SƏNƏ İBADƏT EDİRİK. BİZ YALNIZ SƏNƏ İBADƏT EDİRİK, YƏNİ SƏNDƏN BAŞQASINA İBADƏT ETMİRİK. QUL İLƏ ÖZ RƏBBİ ARASINDA OLAN ƏHDDİR Kİ, QUL YALNIZ ONA İBADƏT ETSİN. "İYYƏKƏ NƏSTƏİN" BİZ YALNIZ SƏNDƏN KÖMƏKLİK İSTƏYİRİK. BİZ YALNIZ SƏNDƏN KÖMƏKLİK İSTƏYİRİK, YƏNİ QUL İLƏ ÖZ RƏBBİ ARASINDA OLAN ƏHDDİR Kİ, QUL ALLAHDAN BAŞQA HEÇ KİMDƏN KÖMƏKLİK İSTƏMƏSİN. "İHDİNƏS-SİRATAL-MUSTƏQİM" YƏNİ, BİZİ DOĞRU YOLA YÖNƏLT. "YÖNƏLT" YƏNİ, BİZƏ YOL

---

[15] Əhzab surəsi, 43-cü ayə.
[16] İnfitar surəsi, 17, 18, 19-cu ayələr.
[17] Sunən ət-Tirmizi, 2459.

GÖSTƏR, BİZİ İSTİQAMƏTLƏNDİR VƏ BİZİ SABİT ET. "YOL" YƏNİ, İSLAM DİNİNƏ. HƏMÇİNİN BU KƏLMƏNİN MƏNASININ RƏSUL OLDUĞU VƏ QURAN-KƏRİM OLDUĞU DA DEYİLMİŞDİR VƏ BUNLARIN HƏR BİRİ HAQDIR, DOĞRUDUR. "DOĞRU" YƏNİ, ÖZÜNDƏ ƏYRİLİK OLMAYAN. "ĞAYRİL-MƏĞDUBİ ALEYHİM" YƏNİ, QƏZƏBƏ UĞRAMIŞLARIN YOLUNA YÖNƏLTMƏ. ONLAR YƏHUDİLƏRDİR. ONLARDA ELM VAR, HAQQI BİLİRLƏR, LAKİN ONLAR O ELMLƏ ƏMƏL ETMİRLƏR. UCA ALLAHA DUALAR EDİB ONDAN İSTƏ Kİ, SƏNİ ONLARIN YOLUNDAN UZAQ ETSİN. "VƏLƏDDAALLİİN" YƏNİ, AZMIŞLARIN YOLUNA YÖNƏLTMƏ. ONLAR XRİSTİANLARDIR. ONLAR ALLAHA CAHİLLİKLƏ VƏ ZƏLALƏTLƏRLƏ İBADƏT EDİRLƏR. UCA ALLAHA DUALAR EDİB ONDAN İSTƏ Kİ, SƏNİ ONLARIN YOLUNDAN UZAQ ETSİN. ONLARIN ZƏLALƏTLƏR İÇƏRİSİNDƏ OLMASININ DƏLİLİ UCA ALLAHIN BU AYƏSİDİR: ***“DE: “SİZƏ ƏMƏLLƏRİ BAXIMINDAN ƏN ÇOX ZİYANA UĞRAYANLAR BARƏSİNDƏ XƏBƏR VERİMMİ? O KƏSLƏR Kİ, ONLARIN DÜNYA HƏYATINDAKI SƏYLƏRİ BOŞA ÇIXMIŞDIR. ÇÜNKİ ONLAR ÖZLÜYÜNDƏ YAXŞI İŞLƏR GÖRDÜKLƏRİ GÜMANİNDA İDİLƏR. ONLAR RƏBBİNİN AYƏLƏRİNİ VƏ ONUNLA QARŞILAŞACAQLARINI İNKAR EDƏN, BUNA GÖRƏ DƏ BÜTÜN ƏMƏLLƏRİ BOŞA ÇIXAN KİMSƏLƏRDİR. ODUR Kİ, QİYAMƏT GÜNÜ BİZ ONLARA ƏHƏMİYYƏT VERMƏYƏCƏYİK.”***[18]

ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR: ***“HƏQİQƏTƏN DƏ, SİZ ÖZÜNÜZDƏN ƏVVƏLKİLƏRİN YOLUNA ADDIMBAADDIM TABE OLACAQSINIZ. HƏTTA ƏGƏR ONLAR KƏRTƏNKƏLƏNİN YUVASINA GİRSƏLƏR, SİZ DƏ ONLARIN ARXASINCA O YUVAYA GİRƏCƏKSİNİZ.”*** SƏHABƏLƏR DEDİLƏR: *"BİZDƏN ƏVVƏLKİLƏR KİMDİR, EY ALLAHIN ELÇİSİ? YƏHUDİ VƏ XRİSTİANLARI DEYİRSƏN?"* ALLAH RƏSULU - sallallahu aleyhi və səlləm - DEDİ: ***“BƏLİ, ONLARDAN BAŞQA KİM OLA BİLƏR Kİ?!”***[19]

ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR: ***“YƏHUDİLƏR YETMİŞ BİR FİRQƏYƏ BÖLÜNDÜLƏR. XAÇPƏRƏSTLƏR YETMİŞ İKİ FİRQƏYƏ BÖLÜNDÜLƏR. BU ÜMMƏT İSƏ YETMİŞ ÜÇ FİRQƏYƏ BÖLÜNƏCƏK. HƏMİN BU FİRQƏLƏRİN BİRİNDƏN BAŞQA HAMISI CƏHƏNNƏM ODUNDADIR.”*** SƏHABƏLƏR DEDİLƏR: "*EY ALLAHIN RƏSULU! O BİR XİLAS OLMUŞ FİRQƏ HANSI*

---

[18] Kəhf surəsi, 103, 104 və 105-ci ayələr.
[19] Səhih əl-Buxari, 3456.

*FİRQƏDİR?"* ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEDİ: ***"MƏNİM VƏ SƏHABƏLƏRİMİN YOLUNDA OLAN FİRQƏ."***[20]

RÜKUYA GETMƏK, RÜKUDAN QALXMAQ, YEDDİ ÜZV İLƏ SƏCDƏ ETMƏK, SƏCDƏDƏN QALXMAQ, İKİ SƏCDƏ ARASINDA OTURMAQ. BU HAQDA UCA ALLAH DEYİR***: "EY İMAN GƏTİRƏNLƏR! RÜKU EDİN, SƏCDƏYƏ QAPANIN..."***[21]ALLAH RƏSULU - ona Allahın salavatı və salamı olsun - DEMİŞDİR: ***"MƏN YEDDİ ÜZV İLƏ SƏCDƏ ETMƏKLƏ ƏMR OLUNDUM."***

NAMAZIN BÜTÜN HƏRƏKƏTLƏRİNİ YERİNƏ YETİRƏRKƏN ƏZALARIN YERİNƏ OTURMASI (TƏLƏSMƏMƏK). RÜKUNLARIN ARASINDA TƏRTİBƏ (ARDICILLIĞA) RİAYƏT ETMƏK. BUNA DƏLİL NAMAZINI PİS QILAN KİŞİ HAQQINDA OLAN HƏDİSDİR. NAMAZINI PİS QILAN KİŞİNİN HƏDİSİ. ƏBU-HUREYRADAN - Allah ondan razı olsun - RƏVAYƏT OLUNAN HƏDİSDƏ DEYİR Kİ, BİR GÜN BİZ PEYĞƏMBƏRİN - ona Allahın salavatı və salamı olsun - YANINDA OTURARKƏN BİR KİŞİ MƏSCİDƏ DAXİL OLDU VƏ NAMAZ QILMAĞA BAŞLADI. NAMAZI QILIB QURTARDIQDAN SONRA PEYĞƏMBƏRİNƏ - ona Allahın salavatı və salamı olsun - SALAM VERDİ. PEYĞƏMBƏR - ona Allahın salavatı və salamı olsun - KİŞİYƏ DEDİ: ***"GET, NAMAZINI YENİDƏN QIL. ÇÜNKİ SƏN NAMAZ QILMADIN."*** KİŞİ BUNU ÜÇ DƏFƏ TƏKRAR ETDİ, SONRA İSƏ DEDİ: *"SƏNİ HAQQ İLƏ PEYĞƏMBƏR OLARAQ GÖNDƏRƏN ALLAHA AND OLSUN Kİ, BUNDAN DAHA YAXŞISINI BACARMIRAM, MƏNİ ÖYRƏT."* PEYĞƏMBƏR - ona Allahın salavatı və salamı olsun - DEDİ: ***"NAMAZA BAŞLADIQDA TƏKBİR GƏTİR ("ALLAHU ƏKBƏR" DE) VƏ SONRA QURANDAN SƏNƏ ASAN GƏLƏN AYƏLƏRDƏN, YAXŞI BİLDİYİN YERDƏN OXU. SONRA RUKU ET VƏ RUKUNU TƏLƏSMƏDƏN, RAHATLIQLA YERİNƏ YETİR. SONRA RUKUDAN QALX VƏ QAMƏTİN DÜZƏLİB RAHAT OLANA QƏDƏR AYAQDA DAYAN. SONRA SƏCDƏ ET VƏ SƏCDƏNİ TƏLƏSMƏDƏN, RAHATLIQLA YERİNƏ YETİR. SONRA SƏCDƏDƏN QALX, RAHATCA OTUR VƏ SONRA BÜTÜN NAMAZINDA BUNLARI ET (BÜTÜN NAMAZINI BU QAYDADA QIL)."***

AXIRINCI TƏŞƏHHÜD RÜKUNDUR. ABDULLAH İBN MƏSUDDAN - Allah ondan razı olsun - GƏLƏN HƏDİSDƏ DEYİR: *"BİZƏ TƏŞƏHHÜD FƏRZ OLUNMAMIŞDAN*

---

[20] Sunən ət-Tirmizi, 2640.
[21] Həcc surəsi, 77-ci ayə

*QABAQ BELƏ DEYİRDİK: "QULLARINDAN ALLAHA SALAM OLSUN. CƏBRAYILA VƏ MİKAYILA SALAM OLSUN".* PEYĞƏMBƏR - ona Allahın salavatı və salamı olsun - DEDİ: ***"QULLARINDAN ALLAHA SALAM OLSUN DEMƏYİN. ÇÜNKİ ALLAH ÖZÜ SALAMDIR. LAKİN DEYİN: "ƏT-TƏHİYYƏTU LİLLƏLİ VƏS-SALƏVƏTU VƏT-TAYYİBƏƏT. ƏSSƏLƏMU ALEYKƏ ƏYYUHƏN-NƏBİYYU VƏ RAHMƏTULLAHİ VƏ BƏRAKƏTUH. ƏSSƏLƏMU ALEYNƏ VƏ ALƏ İBƏDİLLƏHİS-SALİHİN. ƏŞHƏDU ƏN LƏ İLƏHƏ İLLƏLLAH VƏ ƏŞHƏDU ƏNNƏ MUHƏMMƏDƏN ABDUHU VƏ RASULUHU."***

ƏTTƏHİYYƏTU DUASI. *ƏT-TƏHİYYƏTU LİLLƏLİ VƏS-SALƏVƏƏTU VƏT-TAYYİBƏƏT. ƏSSƏLƏMU ALEYKƏ ƏYYUHƏN-NƏBİYYU VƏ RAHMƏTULLAHİ VƏ BƏRAKƏTUH. ƏSSƏLƏMU ALEYNƏƏ VƏ ALƏƏ İBƏƏDİLLƏHİS-SALİHİİN. ƏŞHƏDU ƏN LƏƏ İLƏHƏ İLLƏLLAH VƏ ƏŞHƏDU ƏNNƏ MUHƏMMƏDƏN ABDUHU VƏ RASULUHU.* MƏNASI: "BÜTÜN ƏZƏMƏT, BÜTÜN DUALAR VƏ YAXŞI İŞLƏR ALLAHA MƏXSUSDUR. EY PEYĞƏMBƏR! SƏNƏ ALLAHIN SALAMI OLSUN. ALLAHIN RƏHMƏTİ VƏ BƏRƏKƏTİ OLSUN. BİZƏ VƏ ALLAHIN ƏMƏLİSALEH QULLARINA SALAM OLSUN. MƏN ŞAHİDLİK EDİRƏM Kİ, ALLAHDAN BAŞQA İBADƏTƏ HAQQI ÇATAN MƏBUD YOXDUR VƏ ŞAHİDLİK EDİRƏM Kİ, MUHƏMMƏD ONUN QULU VƏ RƏSULUDUR."

"TƏHİYYƏTİN" MƏNASI YƏNİ, BÜTÜN TƏZİMLƏR VƏ UCALIQLAR ALLAHA MƏXSUSDUR - MÜLKÜN SAHİBİ OLARAQ VƏ HAQLI OLARAQ - BOYUN ƏYMƏK, İTAƏT ETMƏK, RUKU ETMƏK, SƏCDƏ ETMƏK, DAVAMLILIQ VƏ SABİTLİK KİMİ. O CÜMLƏDƏN, ALƏMLƏRİN RƏBBİNİ ƏZƏMƏTLİ EDİB UCA TUTAN HƏR BİR ŞEY. BUNLARIN HAMISI ALLAHA MƏXSUSDUR. KİM BUNLARDAN BİRİNİ ALLAHDAN QEYRİSİNƏ YÖNƏLDƏRSƏ, O ŞƏXS MÜŞRİK SAYILAR. "SALAVATIN" MƏNASI YƏNİ, BÜTÜN DUALAR DEMƏKDİR. HƏMÇİNİN SALAVATIN MƏNASI OLARAQ DEYİLMİŞDİR: BEŞ VAXT NAMAZLAR. "TAYYİBƏTİN" MƏNASI YƏNİ, ALLAH GÖZƏLDİR VƏ O, SÖZLƏRİN VƏ ƏMƏLLƏRİN ANCAQ ƏN YAXŞISINI QƏBUL EDİR.

"ƏSSƏLƏMU ALEYKƏ ƏYYUHƏN-NƏBİYYU VƏ RAHMƏTULLAHİ VƏ BƏRAKƏTUH" YƏNİ, SƏN ALLAH NƏBİSİ - ona Allahın salavatı və salamı olsun - ÜÇÜN UCA ALLAHDAN SALAMATLIQ, RƏHMƏT, BƏRƏKƏT VƏ DƏRƏCƏSİNİN UCALMASINI DUA EDİB İSTƏYİRSƏN. PEYĞƏMBƏR ÜÇÜN DUA OLUNAR,

AMMA ALLAHLA YANAŞI ONA DUA OLUNMAZ. "ƏSSƏLAMU ALEYNƏ VƏ ALƏ İBƏDİLLƏHİS-SALİHİN" YƏNİ, SƏN HƏM ÖZÜNÜ, HƏM DƏ YERDƏ VƏ GÖYDƏ OLAN BÜTÜN SALEH BƏNDƏLƏRİ SALAMLAYIRSAN. SALAM VERMƏK DUADIR. SALEHLƏR ÜÇÜN DUA OLUNAR, ALLAHLA YANAŞI ONLARA DUA OLUNMAZ. "ƏŞHƏDU ƏN LƏƏ İLƏHƏ İLLƏLLAH VƏ ƏŞHƏDU ƏNNƏ MUHƏMMƏDƏN ABDUHU VƏ RASULUHU" YƏNİ, SƏN YƏQİNLİKLƏ ŞAHİDLİK EDİRSƏN Kİ, NƏ GÖYDƏ, NƏ DƏ YERDƏ ALLAHDAN BAŞQA İBADƏTƏ HAQQI ÇATAN MƏBUD YOXDUR. MUHƏMMƏD ALLAHIN QULU VƏ RƏSULUDUR ŞƏHADƏT KƏLİMƏSİNİN MƏNASI YƏNİ, O, ALLAHIN QULDUR, ONA İBADƏT OLUNMAZ, ALLAHIN RƏSULUDUR, YALAN SAYILMAZ, ƏKSİNƏ, ONA İTAƏT OLUNAR VƏ ONA TABE OLUNAR. ALLAH TƏALA ONU QULLUQLA VƏ ELÇİLİKLƏ ŞƏRƏFLƏNDİRMİŞDİR. BUNA DƏLİL OLARAQ UCA ALLAH DEYİR: ***“ALƏMLƏRİ XƏBƏRDAR ETMƏSİNDƏN ÖTRÜ ÖZ QULUNA FURQANI NAZİL EDƏN ALLAH ƏN ƏZƏMƏTLİ, XEYİRİ VƏ BƏRƏKƏTİ BOL OLANDIR!”***[22]

ON ÜÇÜNCÜ RÜKUN: "ALLAHUMMƏ SALLİ ALƏƏ MUHƏMMƏDİN VƏ ALƏƏ ƏƏLİ MUHƏMMƏD KƏMƏƏ SALLƏYTƏ ALƏƏ İBRAHİMƏ VƏ ALƏƏ ƏƏLİ İBRAHİM. İNNƏKƏ HƏMİDUN MƏCİD. ALLAHUMMƏ BƏƏRİK ALƏƏ MUHƏMMƏDİN VƏ ALƏƏ ƏƏLİ MUHƏMMƏD KƏMƏƏ BƏƏRAKTƏ ALƏƏ İBRAHİMƏ VƏ ALƏƏ ƏƏLİ İBRAHİM. İNNƏKƏ HƏMİDUN MƏCİD. " YƏNİ, ALLAHIM! İBRAHİMƏ VƏ İBRAHİMİN AİLƏSİNƏ XEYİR DUA ETDİYİN KİMİ, MUHƏMMƏDƏ VƏ MUHƏMMƏDİN AİLƏSİNƏ DƏ XEYİR DUA ET! ŞÜBHƏSİZ Kİ, SƏN, HƏMD SƏNALARA LAYİQSƏN VƏ ŞAN-ŞÖHRƏTLİSƏN. ALLAHIM! İBRAHİMƏ VƏ İBRAHİMİN AİLƏSİNƏ BƏRƏKƏT VERDİYİN KİMİ, MUHƏMMƏDƏ VƏ MUHƏMMƏDİN AİLƏSİNƏ DƏ BƏRƏKƏT VER! ŞÜBHƏSİZ Kİ, SƏN, HƏMD SƏNALARA LAYİQSƏN VƏ ŞAN-ŞÖHRƏTLİSƏN.

SALAVAT ALLAHDANDIR. ALLAHIN SALAVAT DEMƏSİ - YƏNİ UCA ALLAHIN ÖZ QULUNU ƏN UCA MƏQAMDA TƏRİFLƏMƏSİ DEMƏKDİR. NECƏ Kİ, İMAM BUXARİ - Allah ona rəhmət etsin - ÖZ SƏHİHİNDƏ ƏBUL-ALİYƏDƏN - Allah ondan razı olsun - RƏVAYƏT ETMİŞDİR: ALLAHIN SALAVAT DEMƏSİ - YƏNİ "UCA ALLAHIN ÖZ QULUNU ƏN UCA MƏQAMDA TƏRİFLƏMƏSİ" DEMƏKDİR.

[22] Furqan surəsi, 1-ci ayə.

MƏLƏKLƏRİ SALAVAT DEMƏSİ - YƏNİ "ALLAHDAN BAĞIŞLANMA İSTƏMƏK" DEMƏKDİR. İNSANLARIN SALAVAT DEMƏSİ - YƏNİ "DUA ETMƏK" DEMƏKDİR.

"SALƏTU ƏL-İBRAHİMİYYƏ" DUASINDAN SONRA DEYİLƏN SÖZLƏR. "BƏRƏKƏT VER" VƏ ONDAN SONRA GƏLƏN DUALAR SÖZLƏ OLAN SÜNNƏLƏRDİR.

*NAMAZIN VACİBLƏRİ SƏKKİZDİR:*

1. BAŞLANĞIC TƏKBİRİNDƏN BAŞQA BÜTÜN TƏKBİRLƏR VACİBDİR.
2. RÜKUDA "SUBHƏNƏ -RABBİYƏL-ƏZİM" - DEMƏK.
3. HƏM İMAMA, HƏM ONA TABE OLANA, HƏM DƏ ÖZÜ TƏK NAMAZ QILAN ADAMA "SƏMİ-ALLAHU-LİMƏN-HƏMİDƏH" - DEMƏK.
4. HƏM İMAMA, HƏM ONA TABE OLANA, HƏM DƏ ÖZÜ TƏK NAMAZ QILANA "RABBƏNƏ-VƏLƏKƏL-HƏMD" - DEMƏK.
5. SƏCDƏDƏ OLAN ZAMAN "SUBHANƏ-RABBİYƏL ƏA'LƏ" - DEMƏK.
6. İKİ SƏCDƏ ARASINDA (1 DƏFƏ) "RABBİĞ-FİRLİ" DEMƏK.
7. BİRİNCİ TƏŞƏHHÜD.
8. BİRİNCİ TƏŞƏHHÜD ÜÇÜN OTURMAQ.

RÜKUNLAR VƏ VACİBLƏR HAQQINDA QEYD. *RÜKUNLARDAN HƏR HANSI BİRİ* SƏHVƏN VƏ YA BİLƏRƏKDƏN TƏRK OLUNARSA, NAMAZ O RÜKNUN TƏRK OLUNMASINA GÖRƏ BATİL OLUR. *VACİBLƏRDƏN İSƏ HƏR HANSI BİRİ* SƏHVƏN TƏRK OLUNARSA, O VACİBİN TƏRK OLUNMASINA GÖRƏ SƏHV SƏCDƏSİ EDİLİR. YOX, ƏGƏR VACİB BİLƏRƏKDƏN TƏRK OLUNARSA, NAMAZ O VACİBİN QƏSDƏN TƏRK OLUNMASINA GÖRƏ BATİL OLUR.

ƏN DOĞRUSUNU ALLAH BİLİR.

ALLAHA HƏMD OLSUN, TAMAMLANDI.